TƏKFİRÇİLİYİN İSLAMA
VURDUĞU ZƏRBƏLƏR
VƏ YANLIŞ ƏQİDƏLƏRİ

# TƏKFİRÇİLİK



# TƏKFİRÇİLİK

## TƏKFİRÇİLİYİN İSLAMA VURDUĞU ZƏRBƏLƏR VƏ YANLIŞ ƏQİDƏLƏRİ

***Hazırlayan:***
***İslami Təhqiqat qrupu***
***2016***

## *Bismilləhir-rahmənir-rahim*

***Əziz oxucular! Bu kitabçanı yazmaqda məqsədimiz təkfirçi əqidəliliyin və təfəkkürün yaranmasına və tarixinə, müsəlmanlarla apardıqları müharibələrə, törətdikləri vəhşiliklərə, Peyğəmbərin (s) bu firqə ardıcılları barəsində olan hədislərinə, bu gün dünyada onların real təhlükə yaratmasına qısaca da olsa toxunacağıq. Artıq dünyada olduğu kimi Gürcüstanda da kifayət qədər yayılmış və təhlükə mənbəyi olan təkfirçilər özlərini gah "Əhli-sünnə vəl-cəmaət", gah "Sələfi", gah da başqa adlarla adlandırır, onlara verilən təkfirçi vəhhabi adını qəbul etmirlər. Görünür bunun özü də dini maarifi zəif olan xalqa qarşı yönəldilmiş bir hiylələrindəndir.***

***Qoy insanlar bilsinlər ki, onlar hansı fikrə, hansı əqidəyə qulluq edirlər. Onlar özlərini eybsiz və nöqsansız göstərmək üçün bütün müsəlmanları pisləməkdən başqa bir yol bilmirlər. Bu firqə hər hansı bir müsəlmanı öz əqidəsinə uyğun görmədikdə onu müşrik, yaxud da kafir adlandırırlar. Bu yolla da müsəlmanları parçalayıb onların vəhdət və birliyini pozaraq fitnə-fəsad törədirlər.***

***Qeyd etmək istəyirik ki, bizim mübarizə apardığımımz Əhli-sünnə əqidəsinə və hətta Sələfi fikirlərə mənsub olaraq başqalarını kafir hesab etməyərək sakin dinlərini düşündüklərinə görə yaşayanlarla deyil. Siyasi alətə çevrilərək digər müsəlmanları kafir və müşrik hesab edən, rəhmsiz davranan, radikal ekstremist qruplara çevrilib vəhşilik və terror törədənlərlədir. Gənc müsəlmanları ətraflarına çəkərək onu ictimaiyyətdən, qohum-qonşudan təcrid edən və bəzən də beyinlərini yiyərək (aldadaraq) Yaxın Şərqə ölümə, qardaş qırğınına yollayanlarladır.***

***Sonda hörmətli oxuculardan xahiş edirik ki, kitabçadakı əqidəli olub müsəlmanları kafir hesab edən insanlara rast gəldikdə onların təkfirçi vəhhabi olmasına əmin olsunlar. Çünki əvvəldə də qeyd etdiyimiz kimi onlar heç bir adı və hətta "vəhhabi" adını belə qəbul etmir, özlərini "əsl müsəlman", "Sələfi Saleh", "Əhli-sünnət vəl-Cəmaət" adlandırırlar.***

***İlahi Sən bütün haqq yoldan çıxmış insanları haqq yola hidayət et! Və əgər bu insanlar hidayət olmazlarsa onların şərlərini özlərinə qaytar.***

***Müsəlmanları bütün düşmənlərin şərindən qoru. Amin Ya Rəbbəl aləmin.***

# *YARANMASI VƏ TARİXİ*

Qeyd etməliyik ki, bu əqidənin yaranması Əbdül Vəhhab oğlu Məhəmməddən əvvəl XIII-XIV əsrdə yaşamış ibn Teymiyyə ləqəbi ilə tanınmış Əbül Abbas Əhməd ibn Əbdül Həlimin və onun şagirdi Qeyyimin adı ilə bağlıdı. Lakin o vaxt bu fikir və əqidələr məzhəb şəkilində formalaşmamış və onlar özlərinə çoxlu tərəfdar yığa bilməmişlər. İbn Teymiyyə öz fikir və əqidələrini aşkar etmək üçün kitab yazdığı zaman İslam alimləri, xüsusilə sünni alimləri onun əqidəsinə etiraz əlaməti olaraq kitablar yazmağa başladılar. Bunlara misal olaraq maliki məzhəbinin qazisi Təqiyyəddin ibn Abdullah Əxnainin "Əl-Məqalətul-Mərziyyətu", Fəxr ibn Müəllim Qurəşinin "Nəcmul muhdədi və rəcmül-müqtədi", Təqiyyəddin Hüsnanın "Dəfuş-şübhəti" kitabını və s. göstərmək olar.

Bu alimlərin ikinci xidməti bu olmuşdur ki, onlar ibn Teymiyyəni kafir, bidətçi[1] adlandırmışlar və onu həbs etdirə bilmişlər. Sünnilərin böyük alimlərindən olan Zəhəbi ona məktub yazmış və məktubda onu tarixin ən mənfur adamı "Həccac[2] kimi yolunu azmış" adlandırmışdır. Bu məktubu müəllif "Təkmilətüs-səyfis-siqən" kitabının 190-cı səhifəsində qeyd etmişdir.

İbn Teymiyyə 1308-ci ildə zindanda ölmüş və onu şagirdi Qeyyim də ondan sonra aktiv fəaliyyət göstərə bilməmişdir. Belə ki, Şamda bir qism insanı çıxmaq şərtilə bu əqidə başqa yerlərə yayılmamışdır. Bunu da qeyd etmək lazımdır ki, ibn Teymiyyənin və şagirdinin kitabları vəhhabi məzhəbini formalaşdıran Məhəmməd ibn Əbdül Vəhhaba qədər gəlib çatmışdır. İbn Teymiyyənin ölümündən təqribən 4 əsrə yaxın bir zaman keçdikdən sonra Məhəmməd ibn Əbdül Vəhhab onun kitabları ilə tanış olmuş və bu ideya və fikirləri reallaşdırmaq üçün öz fəaliyyətinə başlamışdır.

---

[1] *Dində olmayan bir şeyi dinəgətirən*

[2] *O bir şəxsdir ki, Kəbəni dağıtmış, Peyğəmbərin məzarına hörmətsizlik etmiş və minlərcə Məkkəlini qətlə yetirmişdir*

O, 1703-cü ildə Ərəbistanın Nəcd vilayətinin Ürəynə şəhərində anadan olub. Atası bu vilayətin qazisi idi. Məhəmməd təhsilini atasından almış və bununla yanaşı əvvəl də qeyd edildiyi kimi o, ibn Teymiyyənin fikirləri ilə də tanış olmuşdur. Hələ cavan yaşlarından Məhəmməd Nəcd əhalisinin bir çox dini əqidəsinə qarşı çıxmış və yerli əhali tərəfindən məzəmmət olunmuşdur.

Məhəmməd ibn Əbdül Vəhhab Məkkəyə, Mədinəyə səfər etmiş və sonra Bəsrə şəhərinə gəlmişdir. O, burada özünü müsəlman kimi qələmə verən, əslində isə ingilis casusu olan Mister Hemferlə tanış olmuşdur. Bu haqda daha ətraflı məlumat almaq istəyən oxucularımız Mister Hemferin özünün qələmə aldığı və bir çox dillərə, o cümlədən də Azərbaycan dilinə tərcümə olunan "Mister Hemferin xatirələri" kitabına müraciət edə bilərlər. Məlum olduğu kimi istismarçı dövlətlər, İslam düşmənləri İslamı aradan aparmaq üçün hərbi güc tətbiq etmiş və etməkdədirlər. Onlar üçün bundan da effektli yol müsəlmanlar arasında əxlaqsızlığı yaymaq, İslam hökmlərini pis cilvələndirmək, İslami rəhbərlərə qarşı nifrət yaratmaq, millətçilik hisslərini oyatmaq və ən başlıcası müxtəlif məzhəb və firqələr yaratmaq olmuş və olmaqdadır. Mister Hemfer də bu yolda çalışan bir ingilis casusu idi. Məhəmmədlə tanışlıq Mister Hemfer üçün göydən düşmə olur. O, Məhəmməd kimi İslam əqidəsinə qarşı çıxan insanı çoxdan axtarırdı. Hemfer kölgə tək Məhəmmədin arxasınca düşdü və axırda öz məqsədinə çatdı. O həmin kitabda yazır: ***"Ona çox hörmətlə yanaşırdım. Gəncliyimin ən dəyərli günlərini onunla keçirdim. Yaxşı ki, əkdiyim ağac öz bəhrəsini verməyə başlamışdı..Məhəmməd Nəcdi cızdığım yolla addım-addım irəliləyirdi. Mənim vəzifəm ona istiqlal və hürriyyət verib, yeni-yeni şübhələr aşılamaq idi".***

Həmin kitabda İngiltərənin Müstəmləkələrə Nəzarət Naziri Hemferin "əməy"ini qiymətləndirərək belə deyir: "Məhəmməd Nəcdi nazirliyimizin müsəlmanların qəlbinə sancmaq üçün daim axtardığı bir silahdır ki, onu əldə etmək üçün sərf etdiyin bütün məsrəflərə dəyər".

Məhəmməd burada bir neçə il qaldıqdan sonra öz şəhərinə - Üyəynəyə dönür. Bu şəhərdə əvvəl mövqeyini gücləndirsə də sonra oradan qovulur. O, Nəcdin tanınmış şəhərlərindən olan Dəriyyəyə yola düşür. O zaman bu əraziyə Mühəmməd ibn Səud rəhbərlik edirdi. Mister Hemferin də səyi nəticəsində Məhəmməd ibn Əbdül Vəhhabla Məhəmməd ibn Səud arasında razılaşma olur. Bu hadisə 1740-cı ilə təsadüf edir. Bu razılaşmaya görə ibn Səud onun əqidəsinin yayılması və onun dini rəhbər kimi tanınması üçün əlindən gələni əsirgəməyəcək, əvəzində isə Şeyx Məhəmməd ibn Əbdül Vəhhab ona öz (vəhhabi) ideologiyasının köməyilə ərazi iddialarına və hücumlarına qanuniyyət kəsb etdirəcək və bu yolla onu genişləndirəcək ərazinin rəsmi əmiri kimi tanıyacaqdı. Doğrudan da Səud rejimi sonradan vəhhabi ideologiyası vasitəsilə gücləndi və Ərəbistan yarmadasını tutaraq oranı Səudiyyə Ərəbistanı adlandırdı. (Bu haqda sonra geniş yazacağıq). Müasir İslam alimlərindən biri haqlı olaraq vəhhabiliyi Səudiyyə rejiminin "ömür şüşəsi" adlandırmışdır.

***Şeyx Məhəmməd ibn Əbdül Vəhhabın övladları haqqında bəzi alimlər bunu qeyd etmişlər ki, onun iki oğlu Həsən və Hüseyn atalarının əqidələrinə qarşı çıxmış və bu yolda şəhid olmuşdular. Hətta Hüseynin başını vəhhabilər mişarla kəsmişlər. Digər oğlanları isə atalarının yolunu davam etdirmişdilər.*** Şeyx Məhəmmədin bir qızını isə Məhəmməd ibn Səud öz oğluna alaraq, iki ailə arasında qohumluq əlaqələri yaratmışdır.

Şeyx Məhəmmədin fikir və ideyalarının Nəcddə, xüsusilə də Dəriyyədə yayılmağa başladı ki, bununda bir neçə səbəbi olmuşdur: 1) Bu vilayətin əhalisinin dini maarifi demək olar ki, yox dərəcəsindəydi. 2) Burada yaşayan ərəblər hələ də qəbilə həyat tərzində yaşayırdılar. Hər qəbilənin də öz ağsaqqalı olurdu. Bu ağsaqqal qəbiləni idarə edər və onun göstərdiyi yol qəbilə üzvləri üçün qanun olardı. Və əgər o hər hansı dini, məzhəbi qəbul etsəydi qəbiləsi də sorğu-sualsız bu dini və ya məzhəbi qəbul edərdi. 3) Bu yer ucqar bir yer olduğundan və əhalinın bədəvi ərəblərdən təşkil olunması, onların elmsizliyi. Bu da onların tez təsir altına düşməsinə səbəb oldu. 4) Bu əhalinin əvvəldən

qan tökməyə meyilli olmaları. Dəriyyə əhalisi əvvələr də ibn Səudun başçılığı ilə digər qəbilələrə müntəzəm hücum edir, onları öldürür və onları qarət edirdilər. 5) Qəbilə üzvlərinə müharibələrdən böyük qənimət veriləcəyinin vəd olunması.

***Şeyx Məhəmmədin ən böyük cinayətlərindən biri də onun puç əqidəsini qəbul etməyən müsəlmanları "kafiri-hərbi" adı altında cəzalandırmasıdır.*** 1740-cı ildəki razılaşma ilə dini və mənəvi lider olaraq Şeyx Məhəmməd ibn Əbdül Vəhhab, əmir olaraq Məhəmməd ibn Səud başda olmaqla böyük istilalara, hücumlara başladılar***. Onlar vəhhabi olmayanların mallarına, canlarına və namuslarına təcavüz etməyi özünə halal bilirdilər. Onlar dəfələrlə müsəlmanlara hücum etmiş, minlərlə insanı qətlə yetirmiş, mal-dövlətlərini talan etmişlər.*** Bu hücumlarda onların şüarları "Ya Vəhhabilik, ya qılınc" idi. Şeyx Məhəmməd İslama və müsəlmanlara böyük xəyanət etdikdən sonra 1792-ci ildə öldü. Ondan sonra onun əqidəsini başda Səud ailəsindən olan əmirlər olmaqla zor gücünə yaymağa davam etdilər.

## *TÖRƏTDİKLƏRİ CİNAYƏT VƏ VƏHŞİLİKLƏRƏ BAXIŞ*

### Kərbəlada müsəlmanların amansızcasına qətlə yetirilməsi

Doğrudan da vəhhabilər müqəddəs ziyarət ocaqlarında törətdikləri cinayət faktları ilə tarixin səhifəsini zülmətə qərq edərək, alınlarına cinayətlərini əks etdirən həmişəlik damğa vurdular.

Bu məzhəbin nümayəndəsi olan Səlahəddin Muxtar yazır: Səud 1216-cı (h.q) ildə Nəcd, Cənubda yaşayan tayfalar, Hicaz və digər bölgələrin əhalisindən ibarət böyük qoşunla İraqa tərəf hərəkət edərək Ziqədə ayında Kərbəlaya yetişdi. ***Onlar Kərbəlanı mühasirəyə aldıqdan sonra şəhərə basqın edərək, qala və divarları darmadağın etdilər. Küçə və bazarda olan dinc əhalinin əksəriyyəti qətlə yetirildi.*** Şəhəri talan etdikdən sonra günortaya yaxın qarət olunmuş mal-dövlətlə oranı tərk etdilər. Qənimət olunmuş malları Səudun özü

mənimsədi. Yerdə qalanını isə hər piyadaya bir hissə və süvariyə iki hissə düşmək şərtilə qoşunun arasında bölüşdürdü.[1]

Vəhhabi tarixçilərindən sayılan Şeyx Osman Nəcd yazır: ***Vəhhabilər gözlənilmədən Kərbəlaya soxuldular. Əhalinin böyük əksəriyyətini küçədə, bazarda və öz evlərində qətlə yetirdilər. (Onlar hətta Peyğəmbərin (s) nəvəsinə belə ehtiram etməyib) Hüseynin (ə) məzarını dağıdaraq, hərəmə (məqbərəyə) aid bütün qiymətli əşyaları mənimsədilər***. Şəhərdə olan mal-dövlət, qiymətli daş-qaş, silah, geyim, xalça, qızıl və nəfis Quran kitablarını oğurladılar. İyirmi min günahsız insanın həyatına son qoyduqdan sonra, günortaya yaxın şəhəri tərk etdilər.[2]

***Bəzi tarixçilərin yazdıqlarına görə vəhhabilər bir gecədə iyirmi min nəfəri qətlə yetirdilər.***[3]

Mirzə Əbi Talib İsfahani öz səfərnaməsində yazır: Londondan qayıdıb Kərbəla və Nəcəf şəhərlərindən keçərkən iyirmi beş min nəfər vəhhabinin Kərbəlaya hücum çəkdiyinin şahidi oldum. Onlar, "Müşrikləri öldürün və kafirlərin başlarını kəsin" şüarlarını səsləndirərək, beş min nəfərdən çox insanın ölümünə səbəb oldular. Yaralıların isə sayı-hesabı yox idi. İmam Hüseynin (ə) müqəddəs məzarının ətrafı ölü cəsədləri ilə dolu idi. Başsız bədənlərdən qan su yerinə axırdı.

Mən bu hadisədən on bir ay sonra Kərbəlaya getmişdim. Xalq "tövhid carçılarının" törətdikləri vəhşilikləri xatırlayaraq ağlayırdılar. Bu ürəkağrıdıcı hadisəni eşidən hər bir kəsin bədəninin tükləri qalxır və vücudu lərzəyə gəlirdi.[3]

Vəhhabilər Kərbəla əhalisini kütləvi şəkildə rəhimsizcəsinə qırğına verərək, İmam Hüseynin (ə) müqəddəs hərəminə (məqbərəsinə) son dərəcə hörmətsizlikdən sonra həmin ordu ilə Nəcəf şəhəri istiqamətində hərəkət etdilər. Lakin Nəcəf camaatı onların Kərbəlanı qarət etməsi və törətdikləri cinayətkarlıqdan xəbər tutduğu üçün əvvəlcədən müdafiəyə hazır idilər. Hətta qadınlar vəhhabilərin qarət,

---

[1] *Tarixul-məmləkə əs-səudiyyə, c.3, səh. 73*
[2] *Ünvanul-məcd fi tarixi Nəcd, c. 1, səh. 121, 1216-cı (h.q) ilin hadisəsi.*
[3] *Məsiru-Talibi, səh. 408*

qətl və namusa təcavüz kimi qeyri-insani davranışlarının qurbanı olmamaqları üçün öz kişilərini onlarla mübarizəyə təhrik edirdilər.

1215-ci (h. q) ildə Həzrət Əlinin (ə) müqəddəs məqbərəsini dağıtmaq məqsədi ilə Nəcəf şəhərinə yollanmış bir qrup vəhhabi isə yolda bədəvi ərəblərlə qarşı-qarşıya gələrək nəticədə məğlubiyyətə uğradılar.[1]

Vəhhabilərin on il ərzində bir neçə dəfə Kərbəla və Nəcəf şəhərlərinə kəskin hücumları olmuşdur.[2]

### Hicazda Taif əhalisinin kütləvi qırğını

***Bəlkə də ilk baxışda bəziləri belə düşünsün ki, vəhhabilər yalnız şiələrin yaşadığı ərazilərə hücum etmiş və təkcə bu məzhəbin nümayəndələrinin yaşadığı şəhərləri çapıb talamışlar. Lakin onların Hicazda və Şamdakı kobud davranışına nəzər saldıqda aydın olur ki, hətta sünnilərin yerləşdiyi məntəqələr belə, onların vəhşicəsinə törətdikləri cinayətlərdən kənarda qalmamışlar.***

Cəmil Sidqi Zəhabi vəhhabilərin Taif şəhərinə hücumu barəsində yazır: 1217-ci (h. q) ildə Taif camaatının kütləvi qırğını vəhhabilərin törətdikləri ən çirkin işlərdəndir. Böyük və kiçiyə hörmət etməyən bu qansızlar südəmər körpəni ana döşündəcə öz qanına bulaşdırdılar. Quran oxumaqla məşğul olanları və məsciddə namaz qılmaqda olan şəxsləri belə qətlə yetirdilər. Quran, Səhih-Buxari, Səhih-Müslim və digər hədis və fiqh kitablarını küçə və bazarlarda ayaqlar altına ataraq aradan apardılar.[3]

Vəhhabilər Taif şəhərində çoxsaylı insan ölümü ilə nəticələnən vəhşilikdən sonra Məkkə alimlərinə ünvanladıqları məktubda onları öz ayinlərinə dəvət etdilər. Alimlər məktubu cavablandırmaq məqsədi ilə Kəbəyə toplaşdılar. Elə bu an vəhhabilərin zülmünə məruz qalmış Taif əhalisindən bir qrupu Məscidül-Hərama daxil olaraq, onların

---

[1] *Mazi ən-Nəcəf və haziruha, c. 1, səh. 325*
[2] *Tarixul-məmləkətus-səudiyyə, c. 1, səh. 92 Bəzi yazılarda vəhhabilərin Kərbəlaya hücumlarını 12 ildən artıq davam etdiyi göstərilir. Bax: "Vəhhabi məzhəbi" Cəfər Sübhani, Azərbaycancaya çevirəni: Yusif Bağırov, səh. 19 (mütərcim)*
[3] *Əl-fəcrus-sadiq, səh. 22*

başına gətirdiklərini məclis əhlinə açıqladılar. Bunu eşidən iştirakçılar dəhşətə gəldilər. Sanki bir anlığa orada qiyamət səhnəsi quruldu. Sonda isə Məkkədən və digər İslam ölkələrindən Həcc ziyarətinə gələn sünnə-əhlinin dörd əsas müfti və alimləri vəhhabilərin kafir olmasına dair qərar çıxardaraq, onlarla mübarizəyə qalxmağı Məkkə əmirliyinə zəruri hesab etdilər. Onlar həmçinin əlavə etdilər ki, bu cihadda (vəhhabilərlə mübarizədə) iştirak etmək hər bir müsəlmana vacibdir. Bu yolda ölənlər isə şəhid hesab olunur.[1]

**Əhli-sünnə alimlərinin kütləvi surətdə qırılmasına qərar**

Kontr-admiral General Əyyub Səbri, Osmanlı dövlətinin hərbi dəniz donanmasının ali məktəbinin rəisi yazır: Məhəmməd ibn Əbdül-Vəhhabın sözlərindən təsirlənmiş Əbdül-Əziz bin Səud qəbilə başçıları qarşısında söylədiyi birinci çıxışında dedi: Biz bütün şəhərlərə və abadlıqlara sahib olmalı, öz əqidə və şəriətimizi onlara aşılamalıyıq... Bu arzunun həyata keçməsi üçün özlərini peyğəmbər sünnəsinin və Məhəmməd şəriətinin ardıcılları hesab edən əhli-sünnənin elm adamlarını aradan götürməliyik.

Başqa sözlə desək, özlərini əhli-sünnə alimi kimi qələmə vermiş müşrikləri qılıncdan keçirməliyik; Bu siyasətin ilk qurbanları öncə tanınmış və diqqət mərkəzində olan bilik sahibləri olmalıdır; çünki, nə qədər ki bunlar sağdır, bizim dindaşlarımız xoş gün görməyəcəklər. Bu mərhələdə ilk növbədə özlərini alim kimi tanıtdıran şəxslərin kökünü kəsib, daha sonra Bağdadı işğal etməliyik.[2]

Eləcə də yazır: ***Səud bin Əbdül-Əziz 1216-cı (h.q) ildə Məkkəni ələ keçirdikdən sonra bir çox sünni alimlərini səbəbsiz olaraq şəhadətə çatdırdı. Habelə bir çox nüfuzlu və görkəmli şəxsiyyətləri heç bir ittihamı olmadan dara çəkdirdi.*** Vəhhabilərə əyilməyərək öz əqidələrində möhkəm duranları isə, müxtəlif işgəncələrlə hədələdi. Daha sonra göndərdikləri carçılar küçə və bazarda fəryad çəkərək deyirdilər: "Ey

[1] *Seyful-Cəbril-məslul-ələl-əda, Şah Fəzl Rəsul Qadiri, səh.2*
[2] *Tarixe Vəhhabiyan, səh. 33*

camaat! Səudun dininə üz gətirin və onun hər yeri bürümüş geniş kölgəsi altına sığının.”[1]

## Tarixi abidələr və mədəniyyət əsərlərinin məhv edilməsi

Keçmişdə yaşamış insanların tarixinin qorunması və qədim mədəniyyət əsərlərinin toxunulmazlığı hər millətin svilizasiya göstəricisidir. Dövlətlər bu mirasın keşiyində durmaq üçün xüsusi idarələr təsis edir və mahir mütəxəssislər yetişdirirlər. Onlar bu zəmində hətta bir saxsının və daş üzərinə həkk edilmiş kiçik bir kətibənin (yazının) belə aradan getməsinə icazə vermirlər.

Şübhəsiz, müsəlmanların səmavi təlimlər sayəsində əsasını qoyduğu İslam mədəniyyəti, əsrinin ən öncül svilizasiyası sayılırdı.

Çiçəklənməkdə olan bu svilizasiya hicri-qəməri tarixi ilə dördüncü və beşinci əsrdə özünün ən ali zirvəsinə yetişdi. Qərb tədqiqatçılarının etirafına görə, İspaniya və xaç yürüşləri vasitəsilə avropaya təsir göstərən bu svilizasiya son yüz illikdə qərbdə intibah dövrünün ən başlıca səbəblərindən biri hesab edilir.

Həzrət Peyğəmbərin (s) şəxsən özünə və vəfalı dostlarına mənsub tarixi əsərlər və abidələr bu böyük svilizasiyanın ümumi mirasının bir hissəsi olması etibarı ilə, onların qorunub saxlanılması, bu mədəniyyət və svilizasiyanın yaradıcılarına ehtiram əlamətidir. Habelə, bu tarixi əsərləri məhv etmək fikir düşkünlüyünün, tarix və svilizasiyanın banilərinə diqqətsizliyin nəticəsidir ki, zaman keçdikcə tarixi reallıq və dini orijinallığın yaddaşlardan silinməsinə gətirib çıxarır. Ən başlıcası isə fitri istəklərin tənəzzülünə və bəşər cəmiyyətində parlaq istedadların zəifləməsinə səbəb olur.

Qurani-Kərimdə açıq-aydın göstərilir ki, keçmiş xalqlar öz peyğəmbərlərinin (s) tarixi əsərlərini qoruyub saxlamaqda əllərindən gələni əsirgəmir, hətta o abidələrə təbərrük edirlər; ailəsindən Musa və Haruna böyük irs qalmış əşyaları bir sandığa yığaraq, ona sığınmaqla düşmən üzərində qələbə çalmaq üçün onu özləri ilə

---

[1] *Həmin qaynaq, səh. 74*

döyüşlərdə gəzdirmələrini buna misal vurmaq olar. Allah-təala bu barədə buyurur:

"(İsrail övladının) peyğəmbəri onlara dedi: "(Talutun) padşahlıq əlaməti (Musaya verilən) sandığın sizə gəlməsidir. Onun içində (sizin üçün) Rəbbinizdən bir arxayınlıq, rahatlıq (mənəvi bir qüvvə, səbat), həmçinin Musa və Harun nəslindən qalan şeylər vardır."[1]

Cəlaləddin Süyutinin nəql etdiyinə görə, Allahın Rəsulu (s) «...Fi buyutin əzinəllahu ən turfə'ə vəyuzkəra fihəsmuhu»[2] ayəsini məsciddə oxuyarkən bir nəfər qalxaraq soruşdu: «Bu ayədə evlər dedikdə nə nəzərdə tutulur?» Həzrət Peyğəmbər (s) buyurdu: «Peyğəmbərlərin evləri.» Elə bu an Əbubəkr qalxıb Əli (ə) və həzrət Zəhranın (ə) evinə işarə edərək: «Ey Allahın Peyğəmbəri (s)! Bu ev Allahın onun dərəcəsinin yüksəldilməsinə izin verdiyi evlər-dəndirmi?» dedikdə, Həzrət (s) buyurdu: «Bəli, bu onların ən üstünüdür.»[3]

Bu hadisə onu göstərir ki, Allah yanında peyğəmbərlərin və əməlisalehlərin evlərinin xüsusi dərəcə və hörməti var. Bu ehtiram isə maddi materiallara – qum, palçıq və kərpicə görə deyil, oranın sakini olmuş dahi insanlara xatirdir.

Peyğəmbərlər və övladlarının dəfn edildiyi ölkələrə səyahət etdikdə görürük ki, onların davamçıları öz peyğəmbərlərinin məzarlarını qoruyub saxlamış və üzərində möhtəşəm tikililər və məqbərələr ucaltmışlar. Habelə İslam ordusu Fələstin və Suriyanı fəth etdikdə, onların peyğəmbər məzarlarına toxunmadıqlarını, hətta ziyarətgahların keçmiş xidmətçilərini də öz işlərində saxladıqlarını görürük. Məhz bu səbəbdən antik mədəniyyətimizi bizə xatırladan bu binalar ululardan bizə yadigar qalmış və təkcə müsəlmanlar üçün deyil, tək Allahı tanıyan dünyanın bütün insanları üçün xüsusi cazibədarlığı ilə seçilmişdir.

---

[1] *Bəqərə, 248*
[2] *Nur, 36*
[3] *Dürrül-mənsur, səh. 203*

***Əgər peyğəmbərlərin və ilahi övliyaların məzarları üzərində tikinti işi aparmaq şirk olsaydı, xəlifələr tərəfindən təyin edilmiş şəxslər o şəhərlərdə zəfər çaldıqdan sonra, o binaları aradan aparmalı idilər.***

***İslam ölkələrində və ilahi vəhy nazil olmuş məkanlarda yüzlərlə məzar və məqbərənin yerləşdirilməsinin səfərnamələrdə və tarixi kitablarda göstərilməsi müddəamızı bir daha təsdiqləyir.***

Tanınmış tarixçi Məsudi (vəfat tarixi: 345 h. q), Bəqi qəbristanlığında dəfn edilmiş insanların əhli-beytin məzarlarına məxsus bütün məlumatları incəlikləri ilə bəyan etmişdir. Şərq ölkələrini üç dəfə dövr etmiş altıncı əsrin (h.q) məşhur ispanyalı Səyyahı İbn Cübeyr öz səfərnaməsində Misir, Məkkə, Mədinə, İraq və Şamda dəfn edilmiş peyğəmbərlər, əməlisalehlər və imamların müqəddəs məqbərələri haqda təfsilata varmış, eyni zamanda Bəqidə dəfn olunmuş imamların rövzəsi və onların zərihlərinin (qəbir ətrafına çəkilmiş dəmir hasar) xüsusiyyətlərini vəsf etmişdir.[1]

## Məkkə böyüklərinə mənsub tarixi abidələrin dağıdılması

***Vəhhabilər 1218-ci (h.q) ildə Məkkənin hakimiyyətini ələ keçir-dikdən sonra, din rəhbərlərindən irs qalmış bütün tarixi əsərləri məhv etdilər.***

***Kəbənin ətrafında və Zəmzəmin üzərində olan bütün qədimi əsərlər vəhhabilər vasitəsi ilə xarab edildi. Ələ keçirdikləri şəhərin əməlisaleh şəxslərinin tarixi abidələrini sıradan çıxardılar.*** Kəşful-irtiyab kitabının yazdığına görə, onlar bu abidələri xarab edərkən, təbil vurur, rəqs edir və mahnı oxuyurdular.[2]

Vəhhabilərin törətdikləri vəhşilikləri saymaqla qurtarmaz. İnsani dəyərlərdən uzaq bu insanlar özlərini bədbəxtlik girdabına bir addım da yaxınlaşdıraraq, Həzrət Xədicənin (ə) evinin üzərində ümumi tualet tikdilər. Bu azğınlar həzrət Peyğəmbərin (s) doğulduğu yerdə də bu cinayət  işlərini təkrarlamaq istəyirdilər ki, xoşbəxtlikdən xeyriyyəçi

---

*[1] Reybətu İbn Cübeyr, səh. 173, Ətraflı məlumat əldə etmək istəyənlər, tanınmış alim və bacarıqlı fəqih Həzrət Ayətullah Sübhaninin "Vəhhabiyyət, Məbaniye fikri və karnameye əməli" əsərinin 149-179-cu səhifələrinə müraciət edə bilərlər.*

*[2] Kəşful-irtiyab, səh. 27, tarixi Cəbərətidən nəql edərək.*

bir şəxs oranı kitabxanaya çevirməklə, vəhhabilərin çirkin işinin qarşısını alır.[1]

## Böyük kitabxanaların yandırılması

***Vəhhabilərin İslam aləminə, ümumiyyətlə bəşəriyyətə vurduğu ağır zərbələrdən biri də çoxsaylı qiymətli elmi əsərlər yerləşdirilmiş böyük kitabxanaların yandırılmasıdır. Bu kitabxanalardan biri də "Əl-məktəb əl-ərəbiyyə" kitabxanasıdır. 60 min adda misilsiz qiymətli əsəri olan bu kitabxanada, ayrı-ayrı şəxslər tərəfindən müxtəlif üslublarda yazılmış 40 min nadir əlyazma nüsxə mövcud idi.*** Bu əlyaz-maların arasında cahiliyyət dövrünə mənsub xətt üslubunda yazılmış əsərlər və yəhudilərlə müşriklər arasında həzrət Peyğəmbərin (s) əleyhinə bağlanmış müqavilə xüsusi maraq kəsb edirdi. Eləcə də Həzrət Əli (ə), Ömər, Xalid ibn Vəlid, Tariq bin Ziyad və hörmətli Peyğəmbərin (s) digər səhabələrinin əlyazmaları, habelə Əbdullah ibn Məsud tərəfindən yazılmış Qurani-Kərim mövcud idi. Vəhhabilər bu kitabxananı odlamaqla, sanki bütün elmsevərlərin qəlbinə və İslamın elm xəzinəsinə od vurdular. İnsanlıqdan azacıq bəhrələnmiş hər bir şəxs üçün ürəkağrıdıcı olan bu cinayət bir daha vəhhabiliyin həyasızlığını ifşa edərək, onları cani anlamı ilə yaddaşlara həkk etdirdi.

Sözügedən kitabxanada Allahın Rəsuluna (s) mənsub müxtəlif növ silahlar və İslam meydana gələrkən bütpərəstlər tərəfindən "Lat", "Üzza", "Mənat" və "Hubəl" kimi sitayiş olunan bütlər saxlanılmışdı.

Nasirəddin Səid tarixçilərin birindən belə nəql edir: Vəhhabilər iqtidarı ələ aldıqdan sonra bu kitabxanalarda küfr yazılarının olması bəhanəsini qabardaraq, onların hamısını odlayaraq külə çevirdilər.[2]

---

*[1] Bax: Nəsihəti li-ixvanina ən-nəcdiyəyn.*

*[2] Bax: Tarixu Ali-Səud, c. 1, səh. 158; Kəşful-irtiyab, səh. 187-324; Əyani əş-şiə, c. 2, səh. 72; Əs-səhih min sirətin-nəbiy əl-əzəm, c.1, səh. 81; Ali Səud min əyn ila əyn, səh. 47.*

## Mədinədə dahilərin abidələrinin məhv edilməsi

***Ali-Səud 1344-cü (h.q.) ildə hicaza tam yiyələndikdən sonra Mədinədə olan bütün səhabələrin abidələrini darma – dağın etdi;*** aşağıdakı məqbərələr vəhhabi vəhşiliklərinin günahsız qurbanlarına bir neçə nümunədir:

1. Mədinədə İmam Həsən və Hüseyn (ə) doğulduğu yer;
2. Bədr döyüşündə şəhid olanların məzarları;
3. Bəqidə dəfn edilmiş dörd imamın (İmam Həsən, Səccad, Baqir və Sadiq (ə)) müqəddəs məzarları;
4. İmam Əlinin (ə) Həzrət Fatimə (s.ə.) üçün tikdiyi "Beytul-Əhzan";
5. İmam Əlinin (ə) anası Fatimə binti Əsədin müqəddəs məzarı...

## VƏHHABİLƏRİN ƏLİ İLƏ İSLAMİ ƏSƏRLƏRİN DAĞIDILMASI

Hal-hazırda dünyanın hər yerində keçmiş nəsillərdən irs qalmış tarixi abidə və əsərlərlə fəxr edilir, onları qoruyub-saxlamağa həddindən artıq səy göstərilir və onları təmir edib düzəltmək üçün külli miqdarda pul sərf edilir.

***Dünya ölkələri arasında belə bir qanun var ki, xaricdən gələn müxtəlif hey"ətlərə və qonaqlara öz tarixi abidələrini göstərsinlər. Amma qəsbkar vəhhabi dövləti İslamın tarixi əsər və abidələrini bir-birinin ardınca və tamamilə məhv edir ki, gələcəkdə onlardan heç bir əsər-əlamət qalmasın.*** Bu, vəhhabilərin İslama və bütün müsəlmanlara qarşı törətdikləri böyük bir cinayətdir. Çünki bu tarixi abidələr heç kimin şəxsi əmlakı deyil və bütün müsəlmanlara məxsusdur; tarix boyu müsəlmanların iftixarı sayılmış, indi də sayılmaqdadır.

- Vəhhabilər 1800-cü illərdə Məkkəyə girdiklərində ilk etdikləri iş Peyğəmbər dövründən qalma strukturları yerlə bir etmək oldu. Peyğəmbərin (s) məzarı isə talan edildi.

- 1925-ci ildə Mədinədə olan və içində yatanlardan ötəri "Cənnətül-Bəqi" adı verilən qəbiristanlıqdakı bütün məzarlar Kral Əbdüləziz bin Suudun əmri ilə yıxıldı.

- "Cənnətül-Bəqi" peyğəmbərin yaxınlarının dəfn edildiyi məkandır. Peyğəmbərin oğlu İbrahim də bu qəbiristanlığa dəfn edilib. Peyğəmbərin bibiləri Səfiyə, Hz. Əlinin anası Fatimə binti Əsəd də bura dəfn ediliblər.

- Kral eyni ildə peyğəmbərin babaları, həyat yoldaşı, anasının məzarlarının tapıldığı Məkkədəki "Cənnətül-Müəlla" qəbiristanlığını da uçurub.

- Hz. Həvvanın Ciddədəki məzarı, Hz. Məhəmmədin (s) atası Abdullahın Mədinədəki məzarı, Hz. Fatimənin (s.ə) Mədinədəki (ehtima olunan) məzarı, Mədinədəki Salman əl-Farisi Məscidi, Peyğəmbərin hicrətdən sonra Mədinədə yaşadığı ev, Hz. Cəfəri (ə) Sadiqin Mədinədəki evi, Hz. Həsən və Hz. Hüseynin (ə) doğulduqları yer olan Hz. Əlinin (ə) evi də vəhhabilər tərəfindən yerlə bir edilib.

- Vəhhabilər Həzrət Əlinin (ə) Gücünü nümayiş etdirən bu qalanın qapısını qala ilə birgə yerlə yeksan etdilər. Xeybər, Mədinə şəhərinin 95 kilometrliyində yerləşən bir məntəqənin adıdır. Qədimdə bu məntəqədə çoxlu möhkəm qalalar var idi. O qalalarda yəhudilər yaşayırdılar.

- Yəhudilər müsəlmanların qorxusundan Xeybər qapısını böyük böyük qala qapısı etmişdilər. Bu qapı çox böyük və ağır bir daş parçasından ibarət idi ki, açıb-bağlamağa qırx dörd nəfər lazım olurdu. Amma İslam qoşununun qəhrəman sərkərdəsi həzrət Əli (əleyhis-salam) Xeybər müharibəsində o qapını təklikdə yerindən çıxardıb qırağa atdı.

- Qədir-Xum (Xum diyarı) İslam tarixində böyük bir hadisədən xəbər verir. Peyğəmbəri Əkrəm “Həccətül-vida”-dan qayıdan zaman Məkə ilə Mədinə arasında yerləşən bu məntəqədə düşərgə salmış, Əli

(əleyhissalam)-ın əlini yuxarı qaldıraraq, onu özündən sonra canişinliyə təyin etmişdir. Amma vəhhabilər hakimiyyətə gələndən sonra oradan keçən yolu dəyişdirdilər və o diyarın bütün İslami abidələrini məhv etdilər ki, heç kəs bu hadisənin baş vermə yerindən xəbərdar olmasın.

## Onların İslam tarixinə hücumları bu gün də davam edir

Son illərdə vəhhabi terrorçuları Kərbəla, Kazmeyn və Samirra şəhərinə dəfələrlə hücum etmiş, imamların müqəddəs türbəsində partlayış törətmiş, zəvvarları qətlə yetirmişlər.

İki il öncə isə vəhhabilər Liviyada növbəti cinayətə əl ataraq "Bəqi Qəbiristanlığı"nın dağıtdıqları ildönümündə İmam Həsənin (ə) nəvələrindən olan "Əbdul Səlam əl-Əsmər"in pak hərəmin viran ediblər.

Liviyada, Malidə bir çox İslam əsərini yox edən vandallar sürüsü indi də Suriyaya əl atmış vəziyyətdədirlər.

Vəhhabi terroristlər son günlərdə səhabə Hicr ibn Ədinin türbəsi dağıdılmış cəsədi bilinməyən yerə aparmışlar. Bir neçə tarixi məzarlıqları dağıdaraq viran qoymuşlar.

**Bu Vəhhabilərin Suriyadakı ilk və son işi deyil...**

Daha əvvəl də Raqqada Əmmar ibn Yasirin türbəsinin qarşısına keçib top atışı ilə "Allahu Əkbər" qışqırıqları arasında yerlə bir etmişdilər.

Şamdakı Xanım Zeynəb türbəsinə də hücum olunub və iki dəfə hücum cəhdində partlayışlar törədiblər. Bütün müsəlmanlar tərəfindən müqəddəs hesab edilən bu məkan uzun bir zaman olar ki, bağlıdır.

Bu siyahı daha da uzadıla bilər.

***"Cənnətül-Bəqi"nin əvvəlki vəziyyəti, vəhabilərin törətdiyi "Bəqi" cinayəti:***



***2006 və 2007-ci llərdə İmam Həsən Əsgərinin müqəddəs hərəminə bomba ilə hücum:***



***İmam Həsənin (əleyhis səlam) nəvələrindən olan "Əbdul Səlam əl-Əsmər"in pak hərəminə qarşı terror:***



*Liviyada "Şeyx əl-Lafi" ziyarətgahına qarşı terror:*





*Hücr ibn Ədinin qəbrini viran edən sələfilərin şəkilləri:*





*Xanım Səkinə (ə) ziyarətgahına və Xanım Zeynəbin (s.ə.) hərəmi partlayışdan, terror aktından sonra:*





***Hələ də ara-sıra müqəddəs torpaqlarda törədilən cinayətlərin şahidi oluruq.***

# QƏBİRLƏR BARƏDƏ ZİDDİYYƏTLİ VƏHHABİ MÖVQEYİ

Özünü əhli-sünnə vəl cəmaət adlandıran bir qrup insanın şiələrə qəbirləri ziyarət, qəbir üzərində tikili qurmaq mövzularında irad tutmalarının tez-tez şahidi oluruq. Fikirlərini əsaslandırmaq üçün də bir neçə hədisə istinad edirlər.

İmam Müslimin rəvayətində Cabir ibn Abdullah belə deyir: **“Allah Elçisi (s) qəbirlərin üstünü bərkitməyi, onların üzərində oturmağı və tikili qurmağı qadağan etmişdir.”**

Onların bu fikirlərinin qabaqda cavabı veriləcəkdir. Burada demək istədiyimiz budur ki, əvvəla qəbrin üzərində tikili və ziyarət ta qədimdən əhli sünnənin dört məzhəbində də məqbul və caiz hesab olunubdur və eyni zamanda günümüzə qədər çatan tarixi əsərlərdən bəlli olur ki, Hz. Peyğəmbərimizn (s), imamların  və səhabələrin məzarı üzərində tikililər olmuş və heç bir xəlifə zamanı bununla müxalifətçilik edib mübarizə aparılmamışdır.

Aşağıdakı şəkillərdə əhli-sünnənin dərin hörmət bəslədiyi şəxslərin qəbrlərini görəcəksiniz.

Maraqlıdır dəfələrlə Kərbəlanı hədəf tutaraq dağıdanlar görəsən bu fikrin ilk yaradıcısı İbn Teymiyyənin və dəstəkləyən krallarının qəbri ilə birgə  heç bu məzarları da dağıtmaq, talamaq fikrində olmuşlarımı?

**1. Xalid bin Vəlid**





## 2. Müaviyə bin Əbu Süfyan




## 3. Əbu Hüreyrə




## 4. Mühəmməd bin İsmayıl Buxari




**5. Əbu Hənifə**





**6. İbn Teymiyyə**





İmamlarımızın qəbirlərini, türbələrini bombalayan vəhhabi fitnəkarları öz şeyxlərinin, krallarının qəbirlərini niyə diqqətdən kənar saxlayırlar?

(İbn Teymiyyənin şagirdi) İbn əl-Qəyyim deyir: **«Məzarlar üzərində inşa edilən tikililər bütləri təmsil edir və pərəstiş olunurlar. Bu növ tikililəri uçurmaq vacibdir. Uçurulmasına imkan olduğu təqdirdə onları bir gün belə saxlamaq düzgün deyil. Çünki onlar, «Lat» və «Uzza»ya (cahillik dövrünün iki ən böyük bütü) bənzəyir və ən böyük şirkdir»**.

Kimi gözləyirlər ki? Kim, yaxud nə mane olur onlara İbn Teymiyyənin və krallarının qəbirlərini uçurmağa?

***Vəhhabilərin çirkin arzusu…!***

Vəhhabi alimi Əbu Abdurrahman Mukbil b. Hadinin "Tuhfetul-mucib ala asiletil-hazir vel-ğarib" adlı kitabının 406-cı səyfəsidir. işarələnmiş yerdə bu ifadələr var:

**"biz arzu edirik ki, yanımızda olan Hadinin (Rasulullahın (s)) qəbri üzərindəki məsciddə dağıdılsın və o yerə düşsün.** ama görürük ki, indilik buna gücümüz yetmir. ama inşaallah, yaxın və ya uzaq zamanda bunu edəcəyik, digər bidətləri də aradan qaldıracağıq".

Hörmətli oxucu Peyğəmbərimizin əhlibeytinin, Onu dünyaya gətirən Aminə xanımın qəbrini bu günə qoyanlardan bunu da gözləmək olar.







## VƏHHABİLİK HƏDİSLƏRDƏ

Hörmətli oxucu məlum olduğu kimi Həzrət Məhəmməd (s) gələcəkdə olacaq bəzi hadisələri öncədən söyləmişdir. Və hələ o zaman Həzrət (s) vəhhabilik təhlükəsini hədislərində bildirmişdir. Qəribə də olsa bu haqda olan hədislər əhli-sünnənin etibarlı bildikləri və onların da qəbul etdikləri "Səhihi-Buxari"də də mövcuddur. Biz də həmin kitaba müraciət etmişik. Bu kitabın "əl-fitnə min qibəlil-məşriq" fəslində Abdullah ibn Ömər Peyğəmbərdən (s) belə nəql edir: "Peyğəmbər iki dəfə buyurdu: İlahi, bizə Yəməndə bərəkət ver. Səhabə dedi: Ya Rəsulallah dua edin Allah Nəcddə də bizə bərəkət versin. Peyğəmbər üç dəfə buyurdu: Nəcd azğınlıq və fitnə-fəsad yeri olar. Şeytanın buynuzu oradan çıxacaq"! Doğrudan da sonradan vəhhabilik bu diyarda yarandı və yayılmağa başladı.

Həmin kitabın "Ət-Tövhid" bölümü, "Qiraətul-Facir vəl-munafiqun" fəslində belə bir hədis var. ***Peyğəmbər (s) buyurur: "Məşriq (Şərq) tərəfdən elə insanlar çıxarlar ki, onlar Quran oxumaqdan savayı heç bir şey bilməzlər. Onlar dindən sapmış şəxslərdir. Öz dinlərinə qayıtmazlar". O Həzrətdən soruşdular: "Onların əlamətləri nədir"? Həzrət buyurdu: "Hər zaman başlarını qırxdırarlar".*** Həzrət necə də doğru buyurub. Günümüzdə bunu açıq-aşkar görürük. Onlar ancaq Quran əzbərləyir və onu başa düşdükləri və istədikləri kimi təfsir edirlər. Çoxları (xüsusilə rəhbərləri) başlarını keçəl qırxdırırlar." Vəhhabilik deyilən bir əqidənin yaranacağı haqqında kifayət qədər hədis gətirmək olar. Amma biz məqalənin həcmini nəzərə alaraq bunlarla kifayətlənirik. Bizə elə gəlir ki, bu iki mötəbər hədis vəhhabiliyin nə qədər azğın firqə olmasını sübut etməyə kifayət edir.

### *Dünya və vəhhabilik*

***Bu gün İslama terror damğasını da məhz vəhhabilər gətirmişlər. Ümumiyyətlə İslamda terror dedikdə məhz "vəhhabi terroru" başa düşülməlidir.*** Əfqanıstanda olan Talibanlar, dünya çaplı Əl-Qaidə terror təşkilatı və onun çox saylı şəbəkələri, çeçen terroristləri, digər

vəhhabi yönümlü terror təşkilatları və s. vəhhabi ideologiyasının dünyaya bəxş etdikləridir. İŞİDin Yaxın Şərqdə minlərlə insanın ölümüylə nəticələnən cinayətləri, soyqırımları, dəhşətli edamları Pakistanda və İraqda müsəlmanlara xüsusilə də şiə müsəlmanlarına qarşı törədilən terror hadisələri, Talibanın Əfqanıstanda törətdiyi sayagəlməz cinayətləri və eləcədə bu ölkəni dünyada ən böyük narkotik diyarına çevirməsi, dünyada baş verən bir çox terror hadisələri və s. vəhhabiliyin artıq bütün dünya xüsusilə müsəlman aləmi üçün real təhlükəyə çevrildiyindən xəbər verir.

### *Gürcüstanda vəhhabilik*

Vəhhabilər təqribən 15 ilə yaxındır ki, ölkəmizə ayaq açmağa başlayıblar. Və bu dövürdən başlayaraq Azərbaycanda olduğu kimi Gürcüstanda da sünni-şiə, namazın necə qılınması və s. məsələlər aktuallaşmağa başladı. Bundan əvvəl Gürcüstanda belə bir ayrı-seçkiliyə yol verilməmiş, zaman-zaman bu torpaqda şiə-sünnilər arasında heç bir narazıçılıq olmadan birgə qardaş kimi dinlərini yaşamışlar.

Bu gün Yaxın Şərqdə olan günahsız insan qırğınları, baş kəsmələr, müxtəlif səbkli dəhşətli edamlar, bir sözlə müsəlmanları gözdən salan, dinizmizə ləkə gətirən hadisələr göz önündədir. Bu azmış təkfirçi qruplar dünyada olduğu kimi ölkəmizdən də onlarla gənc sadəlövh müsəlmanları Cihad adı ilə aldadaraq Yaxın Şərqə aparıb öz cinayətlərinə şərik edirlər. Neçə-neçə ailələri başsız, övladları sahibsiz qoymuşlar.

Təəssüflə qeyd edək ki, bu gün də vəhhabi misyonerləri ətraflarında bir çox üsullarla bir dəstə insan toplaya bilirlər. Qafqazda vəhhabiliyin yayılmasının əsas səbəbləri bunlardır:

**1. Dini maarifsizlik amili:** 70 il dindən uzaq düşmüş xalqımız dini cəhətdən savadsız olması.

**2. Xurafat amili:** Belə ki ateizm zamanında xalqda dini etiqadlardan çox xurafatlar dinin tərkib hissələri kimi tanınırdı. Bundan da istifadə edən vəhhabilər bu xurafatların doğurdan da dinin tərkib

hissəsi olmadığını bildirərək və guya bizim məzhəbin inanclarının tərkib hissəsi olduğunu hiyləgərliklə xalqa çatdırmaları.

**3. Maddiyyat amili:** Onlar yardım yolları ilə işsiz və qaçqın təbəqəni öz əllərinə alırlar. Mətbuatda gedən məlumatlara görə "Xəlifə" təşkilatı qafqazda vəhhabiliyin yayılması üçün milyonlarla dollar pul ayırmışdır. Belə faktlar çoxdur.

**4. Müstəqillikdən sonra da həqiqi İslamın və İslam dəyərlərinin xalqa çatdırılmaması və ya qeyri-peşəkar təbliğ.** Belə ki, İslam libasına bürünmüş bəzi "bozbaş molla"ların İslama biznes, pul qazanmaq yolu kimi baxmaları buna səbəb olmuşdur. Bu cür "dindarlar" nəinki, həqiqi İslamı xalqa çatdırdılar, əksinə xalqın həqiqi İslamdan uzaqlaşmasına və başda vəhhabilik olmaqla digər firqə və dinlərə üz tutmalarına səbəb oldular.

## VƏHHABİLƏRİN BİR SIRA İNANC VƏ ŞƏRİİ FƏTVALARININ XÜLASƏSİ

Aşağıda göstərilən əməllər vəhhabilər tərəfindən haram hesab edilir. Onların əsassız inancına görə bu əməlləri yerinə yetirənlər Allaha şərik qoşaraq dindən çıxmış sayılırlar:

### *1. Allaha əl-ayaq, üz, göz və s. nisbət vermək.*

Bir sözlə Allahı cisimləşdirmək. Qəribədir, müsəlmanları şirkdə (Allaha şərik qoşmaqda) günahlandıran vəhhabilər özləri nəinki Allaha şərik qoşurlar, hətta Allahı cismani bir varlıq kimi qəbul edirlər. Yəni onu göydə oturan, gecələr yer səmasına enən, iki əli, gözü, qulaqları və s. olan bir insana bənzər məxluq kimi təsəvvür edirlər. Oxucularımızdan kimsə bizi onlara qarşı iftira atmaqda günahlandıra bilər. Belə oxucularımızdan xahiş edirik ki, vəhhabilərin Azərbaycan dilində yazmış olduqları və böyük tirajla çap olunub əhaliyə paylanılan "Sələfi Salehin əqidələri və ya Əhli-sünnət vəl-cəmaat yolu" kitabına müraciət edə bilərlər.

### *2. Bütün müsəlmanları "kafir" bilirlər*

Onların əqidəsinə görə bütün müsəlmanlar vəhhabi əqidəsini qəbul etməlidilər. Əks təqdirdə onlar kafirdilər və öldürülməlidirlər. Eləcədə vəhhabi əqidəsi daşımayan qadınlara təcavüz etmək halaldır.

Vəhhabi təliminin bir nömrəli təbliğatçısı sayılan Məhəmməd ibn Əbdül-Vəhhab h.q. tarixi ilə XII yüzillikdə müsəlmanları peyğəmbərlər və ilahi övliyalara sığındıqlarına görə müşrik və bütpərəst kimi qələmə verərək, onların kafir, qanlarının halal, öldürülmələrinin şəriət baxımından qanuni, mallarının müharibə qənimətləri hökmündə olmasına dair fətva verdi. O, bu fətvaya əsasən minlərlə günahsız müsəlmanların qanına qəltan olunmasının səbəbkarı oldu.

Hazırda praktiki olaraq yadellilərin xidmətçisinə çevrilmiş vəhhabi müftiləri şiə müsəlmanları ilə evlənmənin haram olmasına, onların kəsdikləri heyvanın nəcis olmasına və şiə fəqihlərinə zəkat verilməsinin qadağan olmasına dair fətva verməklə vəhdətə aparan bütün yolları (dövrümüzdə müsəlmanların birliyinə son dərəcə ehtiyac duyulduğu halda) üzlərinə bağlayırlar.

### *3. «Peyğəmbərlərin, imamların, övliyaların qəbri üzərində türbə, Allah evi tikmək haramdır və onu dağıtmaq vacibdir» deyirlər*

Hər bir vəhhabi imkanı olan halda bu türbələri və məscidləri yıxmalıdır, yoxsa böyük günah etmiş olar. Ümumiyyətlə onlar demək olar ki, İslami abidələrə qarşı düşmən mövqeyi tutmaqdadırlar. Bizim qənaətimizcə bunun özü də vaxtı ilə İslam düşmənləri tərəfindən onların əqidələrinə əlavə olunub. Çünki bir xalqı məhv etmək və onlara keçmişini unutdurmaq üçün onun tarixini xüsusilə tarixi yaşadan tarixi abidələri məhv etmək lazımdır.

Peyğəmbərlərin, xüsusi ilə əziz İslam Peyğəmbərinin (s), onun həyat yoldaşlarının, övladlarının, səhabələrinin və dostlarının yaşadığı mənzilləri, dəfn olunduqları yerləri, ibadət etdikləri məscidləri, tarixi abidə kimi qoruyub saxlamağın çox böyük əhəmiyyəti olduğu

halda onlar nədən bu İslam əsərlərini viran etmək istəyirlər. Necə ki, bəzilərini viran etdilər də. İndi, əgər bu tarixi abidələri məhv etsək və bunlardan heç bir əsər-əlamət qalmasa, İslam düşmənləri üçün dini inkar etməyə böyük dəlil tapılmazmı? Onların bu fikirləri İslam dininə qarşı mübarizə edənlərin istəklərinə kömək deyilmi?

## 4. Övliyaların qəbri kənarında məscidin tikilməsini haram sayırlar

Adını təmiz müsəlman qoyan vəhhabilər nəyə görə müqəddəs ziyarətgahlar yanında məscid tikməyin əleyhinədirlər. Məscidin harda olmasının nə önəmi vardı? Bir də ki, insanı Allahına yaxınlaşdıran ziyarətgahlar kənarında olması nədən haram olsun ki?

Bir halda ki, İslamın qanunlarına diqqət yetirsək, görərik ki, övliyaların qəbri kənarında məscid tikmək heç də haram sayılmır. Allahın sevimli bəndələrinin dəfn olunduğu yerin ətrafında məscid tikməkdə məqsəd Allaha ibadət və təbərrükdən başqa bir şey ola bilməz. Bundan əlavə, belə yerlərdə məscid tikilirsə, övliyaları ziyarət edənlər ziyarətdən qabaq və yaxud ziyarətdən sonra öz vacibi ibadətlərini yerinə yetirirlər. Bir halda ki, qəbirləri ziyarət etmək, ziyarətdən qabaq, yaxud sonra namaz qılmaq haram sayılmırsa, o zaman vacib əməlləri yerinə yetirmək və Allaha ibadət etmək üçün övliyaların qəbri kənarında məscid tikməyin heç bir eybi yoxdur və eyni zamanda da haram deyildir.

Necə ki, Mədinədə Hz. Peyğəmbərimizin (s) mübarək məzarı da elə Mədinədə “Peyğəmbər məscidi”nin içərisindədir.

Əshabi-Kəhfin əhvalatına nəzər saldıqda görərik ki, bu iş (övliyaların qəbri kənarında məscid tikmək) İslamdan qabaqkı dinlərdə olan qayda-qanuna uyğun bir əməldir. Quran bunu bizə tənqidsiz nəql edir.

Əgər, həqiqətən, övliyaların qəbri üzərində və yaxud kənarında məscid tikmək haram sayılırsa, nəyə görə möminlər belə bir təklif irəli sürdülər? Nəyə görə Quranda bu hadisə nəql edilərkən, Allah möminləri tənqid etmir. Quranda bir işin tənqidsiz və etirazsız nəql olunması onun düzgünlüyünə, haram olmamasına dəlil deyildirmi?

### *5. Şəfaəti qəbul etmir, şəfaət istəməyi günah hesab edirlər*

Bu dəstənin fikrincə İlahi Peyğəmbərdən (s) şəfaət diləmək şirkə səbəb olur. Onlar şəfaət diləməyin şəfaətçiyə sitayiş olduğunu iddia edirlər. Lakin onlar anlamırlar ki, hər hansı bir şəxsə edilən hər növ diləyiş və ya ondan şəfaət diləmək o surətdə ibadət hesab olunur ki, tərəf-müqabili yaradılışın Allahı, Pərvərdigarı, Rəbbi və ya ilahi işlərin başlanğıcının sahibi kimi qəbul edilsin. Bundan qeyri-surətdə olan bütün növ dua və diləyişlər, təzim və təvazökarlıqlar heç bir zaman ibadət sayılmayıb və sayılmayacaqdır. Necə ki, Allah-taala Peyğəmbərimizə (s) bir neçə ayəsində buyurmuşdur: “Öz qüsurlarının və möminlərin günahlarının bağışlanmasını dilə.”[1] “Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır.”[2]

Başqa bir ayədə isə şəfaətin yalnız Allaha və Allahın izn verdiyi şəxslərə aid edilir:

- ✓ «Yalnız Allahdan əhd almış kəslərə Qiyamət günü Allahın izni ilə şəfaət edə bilərlər».[3]
- ✓ «O gün Rəhman (olan Allahın) izn verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz!».[4]
- ✓ «Şəfaət edənlərin şəfaəti onlara fayda verməz!»[5]
- ✓ «(O gün) zalimlərin nə bir dostu, nə də sözü keçən şəfaətçisi olar».[6]

Hər zaman Qurandan dəm vuran vəhhabilər nə üçün bu ayələrə diqqət etməmişlər. Yoxsa bu ayələri də öz fikirləri kimi təfsir etmişlər. Axı ayələrdən gün kimi aydın olur ki: 1- Şəfaət vardır, 2-Yalnız Allahın izn verdiyi şəxslər şəfaət edə bilərlər.

---

[1] *Məhəmməd surəsi, 19.*
[2] *Tövbə surəsi, 103.*
[3] *Məryəm surəsi, 87*
[4] *Taha surəsi, 109*
[5] *Müddəsir surəsi, 48*
[6] *Mömin surəsi, 18*

Əziz oxucular sizcə Allahın şəfaət etməyə layiq bildiyi Peyğəmbərdən və məsum imamlardan başqası ola bilərmi? Bir halda ki, Quran doğru şəfaətçinin olduğundan söz açır bəs nədən Allahın izn verdiyi şəxslərin şəfaətini şirk hesab edirlər.

Qurandan sonra mötəbər hədislər biz müsəlmanların ikinci İslami mənbəsi sayılır. Bir də ki, hədis qondarmadı deməsinlər deyə onların özlərinin etibarlı mənbələri sayılan kitablaa müraciət edək:

Peyğəmbərimiz (s) buyurur: "Mənə beş şey verildi.. və şəfaət də əta edildi. Mən də onu öz ümmətim üçün saxladım."[1]

"(Ənəs deyir:) Peyğəmbərdən Qiyamət günü mənə şəfaət etməsini xahiş etdim. O da mənim xahişimi qəbul edib "şəfaət edərəm" deyə buyurdu. Ərz etdim ki, ya Rəsulullah, o gün sən harada olacaqsan? Buyurdu: Sirat körpüsünün kənarında."[2]

"Elə ki, əmirəl-möminin Əli (ə) Peyğəmbərə (s) qüsl verib kəfən tutdu, kəfəni o həzrətin üzündən açıb dedi: "Atam-anam sənə fəda olsun. Sən diri halında da, ölü halında da pak-pakizəsən. Allah-taalanın dərgahında bizi də yad elə"[3]

Peyğəmbərin (s) zamanından bu dövrə qədər müsəlmanlar həmişə doğru şəfaətçilərdən istər diri halda və istərsə də ölü halda şəfaət diləmişlər. Belə bir diləyi İslam məzhəblərinin alimlərindən heç biri İslam əqidəsinin kökləri ilə zidd bilməmişlər.

### *6. Təvəssülü (vasitə qərar verməyi) haram bilirlər*

İlahi övliyalara təvəssül etmək (onlara Allahla özü arasında vasitə etmək) bütün müsəlmanların qəbul etdiyi bir məsələ olduğu halda və Həzrəti Məhəmməd (s) Peyğəmbər İslamı təbliğ etdiyi gündən bu məsələni (təvəssülü) buyurduğu halda yalnız hicri-qəməri tarixinin X əsrində Məhəmməd ibn Əbdül Vəhhab təvəssül etməyin əleyhinə çıxdı

---

[1] *Səhih Buxari, c.1 səh 91 (Misir çapı), «Müsnəd» kitabı, c1, səh.301*

[2] *Sünəni Tirmizi, c. 4, s. 42, "Ma caə fi-şəni-sirat" fəsli.*

[3] *(Nəhcül-Bəlağə, 230-cu xütbə).*

və bunu bidət [1], haram, övliyalara ibadət adlandırdı. Sözsüz ki, Allahdan başqasına ibadət etmək şirk və haram sayılır. Allah Quranda özlərinə belə zərrəcə faydası olmayan bütləri səsləməyi, onları vasitə qərar verməyi haram buyurmuşdur. [2]Lakin Allahın icazə buyurduğu Peyğəmbəri vasitə qərar vermək elə Tanrının özünə ibadətdir. Çünki Həzrət Məhəmmədin (s) məqamı, fəziləti məhz Allahdan, Allahın rəsulu olduğundandır. Deyilmi?

Quranda oxuyuruq: «Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv diləsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər».[3]

Lakin bir tərəfdən də bu dar düşüncəlilər görünür tovhidin mənasını anlamırlar. Çünki anlasaydılar Allaha ibadət etməklə Allahın bəyəndiyi bəndələri vasitə qərar verməyi qarışdırmazdılar. Əgər dua edərkən biz «İlahi Həzrət Məhəmmədin (s) hörmətinə mənim günahlarımı bağışla» deyəriksə bir az məntiqli adam tez anlayar ki, bunun şirkə heç bir aidiyyəti yoxdur.

Bir də ki, əgər şirk idisə nə üçün Həzrəti Adəm (ə) Allahın sözünə əməl etmədiyi üçün behiştdən çıxarıldıqdan sonra Allahın ona öyrətdiyi kəlmələrlə tövbə etdi. Belə ki, Quran buyurur:

“Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək Həvva ilə birlikdə o kəlmələr vasitəsilə tövbə etdi. Doğrudan da, o (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir.”[4]

“Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vasitə axtarın. (Allah) yolunda cihad edin ki, bəlkə nicat tapasınız?”[5] Namaz, oruc və sairə bütün vacib əməllər vasitə sayıldığı kimi peyğəmbərlər və övliyaların da pak duaları vasitə sayılır. Bu vasitələrə üz tutmaq onları yaradana üz tutmaq deməkdir.

---

[1] *Dinə sonradan yenilik gətirmək.*
[2] *Yunus surəsi, 106*
[3] *Nisa surəsi, 64*
[4] *Bəqərə surəsi, 6-cı ayə.*
[5] *Maidə surəsi, 35.*

Əgər şirk idisə bunu Həzrət Peyğəmbərin yanında böyümüş, Həzrət Əli (ə) və Fatimənin (s.ə) övladı, Cənnət ağası Həzrət imam Hüseyn (ə) nə üçün "Ərəfə duasında" demişdir:

"İlahi, belə bir günü (Ərəfə gününü) uca tutub mənə vacib etmisən. Sənə üzümü tutub Peyğəmbərin Mühəmmədə (s) and verirəm.[1]

## *7. Peyğəmbərlərin, övliyaların və yaxud hər hansı bir qəbir ziyarətinə getməyi haram hesab edirlər*

Onların əqidəsinə görə bütün müsəlmanlar bir də ona görə kafirdilər ki, onlar Allah övliyalarının və Allahın saleh bəndələrinin qəbrlərini ziyarət edirlər. Onlar düşünmürlər ki, Peyğəmbərimiz özü bizə qəbirləri ziyarət etməyi tövsiyə etmişdir. "Qəbirləri ziyarət edin, çünki bu, sizlərə başqa aləmi (axirəti) xatırladar."[2] Deməmişdirmi? O ki, qaldı Allahın saleh şəxslərinin qəbrinin ziyarətinə bu daha da mənəviyyat bəxşedici, daha da ruha təsiredici deyilmi?

Bir halda ki, qəbirləri ziyarət etməyin əxlaqi və tərbiyəvi əhəmiyyəti vardır, biz bunlardan bir neçəsinə diqqət yetiririk:

Bütün varlı və kasıbların, güclü və gücsüzlərin sükuta qərq olmuş üç parçadan ibarət ağ paltarla aram məkanda (yəni qəbirdə) yatanları müşahidə etməklə insan ürəyi lərzəyə gəlir, tamahı bu dünyadan azalır. Əgər insan bu aram məkanlara (qəbirlərə) ibrət gözü ilə baxsa, özündə çox dəyişikliklər edər və öz-özünə deyər: Altmış, yetmiş il müvəqqəti yaşayışın sonu torpaqlar altında çürüməklə nəticələnirsə, onda bu dünyada başqalarına və özünə zülm etməklə var-dövlət yığmağın heç bir faydası yoxdur.

Sükuta qərq olmuşların məkanını müşahidə etmək ən bərk ürəklərin belə yumşalmasına, qulaqların haqqı eşitməsinə, gözlərin ilahi nurunu görməsinə, insanın öz həyat tərzində dəyişikliklər etməklə Allah və onun bəndələri qarşısında ağır məsuliyyətlərini, fərdi və ictimai vəzifələri fikirləşib yerinə yetirməsinə səbəb olur.

---

[1] *Məfatihül-Cinan /Ərəfə duası/.*
[2] *İbn Macə, "Səhih", c. 2, s. 213.*

***8. Peyğəmbərlər və övliyaların ziyarətgahlarına təbərrük etmək, şəfa diləməyi böyük günah hesab edirlər***

Vəhhabilər övliyaların tarixi abidələrinə təbərrük etməyi şirk hesab edirlər. Peyğəmbərin minbərini və mehrabını öpən hər bir şəxsi müşrik adlandırırlar. İnsanlar Peyğəmbərə mehribanlıq nəticəsində onun minbərini və mehrabını öpürlər. Belə olan halda vəhhabilər Yusifin köynəyi barədə nə deyə bilərlər? (O zaman ki, qardaşları Misrə gəldilər)

"Yusif dedi: Bu köynəyimi götürüb aparın, atamın üzünə sürtün, o, (yenidən) görməyə başlayar."[1]

Yəqub Peyğəmbər köynəyi üzünə sürtən kimi, onun gözləri açılır.

"Muştuluqçu gəlib köynəyi (Yəqubun) üzünə sürtən kimi, onun gözləri açıldı." [2]

Əgər Yəqub peyğəmbər vəhhabilərin gözü önündə bu işi görsəydi, onunla necə rəftar edərdilər? Günahdan və xətadan pak olan Peyğəmbərin əməlini görəsən, necə qələmə verərdilər?

İndi əgər bir nəfər müsəlman Peyğəmbərin qəbrini, məqbərəsini və yaxud imamların qəbrini ehtiram üçün öpüb, təbərrük edərək bu əməldə Yəqub peyğəmbərdən itaət edirsə, nəyə görə belə bir şəxs lənətlənib kafir hesab olunmalıdır?[3]

Peyğəmbərin həyatı və tarixi ilə yaxından maraqlanan adamlar Peyğəmbərin həyatında səhabələrin onun dəstəmaz suyuna təbərrük etmələrini daha yaxşı bilirlər. Bu haqda onların Səhih kitablarının ən mötəbər kitabı sayılan "Səhiheyn" (Səhihi-Buxari və Səhihi-Müslim) kitablarına müraciət etməklə kifayətlənirik:

---

*[1] Yusif surəsi, 92-ci ayə.*

*[2] Yusif surəsi, 96-cı ayə.*

*[3] Peyğəmbərin vaxtından indiyə kimi vəhhabilərdən başqa bütün müsəlmanlar Peyğəmbərin tarixi abidələrinə təbərrük edirlər. Şeyx Məhəmməd Tahir Məkki bu mətləbi tarixi sübutlarla 1385 h. q. İlində (1965) çap olunmuş "Təbərrük səhabə biasari Rəsulullah (s)" kitabında yazır.*

Buxari "Hüdeybiyyə sülhü"nün əhvalatında belə yazır" Peyğəmbər (s) dəstəmaz alan zaman səhabələr suyun damcılarının yerə düşməməsi üçün bir-birini qabaqlayırdılar."[1]

Buxari "Xatəmün-nübüvvət" fəslində Saib ibn Yeziddən nəql edərək, deyir:

"Xalam məni Peyğəmbərin yanına aparıb - "Bacım oğlu xəstədir" - deyərək Peyğəmbərə müraciət etdi. Peyğəmbər dəstəmaz aldı və Allahdan mənim üçün uğur istədi. Peyğəmbər dəstəmaz alarkən mən dəstəmaz suyundan içdim.[2]

Bu hədislər vəhhabilərin mədəniyyətlərinin və əqidələrinin əsassız olduğunu sübut edir. Görəsən özlərinin qəbul etdiyi – sünnə mənbələrindən olan Səhih–Buxarinin bu hədislərinə niyə biganədirlər. Yoxsa onların yanlış əqidələrinə zidd olduğu üçün bu hədisidəmi zəif (qondarma) hesab edirlər. Buna görəmi onlarda qəbir sahibinə hörmət etmək "ibadət və haram" sayılır. Bu biçarələr İslam maarifindən uzaq düşdüklərinə görə cənazəyə olunan hər bir hörməti də "ibadət" hesab edirlər.

## *9. Peyğəmbərin və İmamların matəm və mövludunu qeyd etməyi haram ediblər*

Vəhhabilər ilahi övliyaların matəm və mövludlarını qeyd etməyi haram sayırlar. Sanki dini rəhbərlər və ilahi övliyalarla düşmən olduqlarına görə onların mövlud və matəm məclislərini qeyd etməyi qadağan etmişlər. Mühəmməd Hamid Fəqi "əl-Fəthul-Məcid" kitabının haşiyəsində yazır:

"Övliyaların matəm və mövludlarını məclis kimi qeyd etmək onlara ibadət sayılır."[3]

---

[1] *Səhihi-Buxari, c. 3, s. 255.*
[2] *Səhihi-Buxari, c. 4, s. 227 və Səhihi-Müslim, "Xatəmün-Nübüvvət" fəsli.*
[3] *Fəthul-Məcid, s. 154.*

Vəhhabilərin əsas səhvləri budur ki, “şirk”, “tovhid” və xüsusi ilə “ibadət” kimi kəlmələr üçün ölçü və qanun təyin etməyiblər. Elə buna görə də bu kimi məclisləri qeyd etməyi ibadət sayırlar.

Müşahidə etdiyiniz kimi, Hamid Fəqi ibadət və ehtiramın bir əməl olduğunu təsəvvür edir.

Onlar düşünmürlər ki, kiməsə ehtiram etmək ibadət deyil. Hamıya məlum olduğu kimi, Quran bir qrup peyğəmbər və övliya haqqında gözəl ibarələrlə və fəsahətlə söz açır:

“Onlar (peyğəmbərlər) xeyirli işlər görməyə tələsər (yaxşı əməllər etməkdə bir-birini ötməyə çalışar), ümid və qorxu ilə (rəhmətimizə ümid bəsləyib əzabımızdan qorxaraq) bizə ibadət edərdilər. Onlar bizə müti idilər.”

İndi bu kimi peyğəmbər və övliyaların adına təşkil olunmuş məclislərdə birinin bu ayənin məzmunu ilə onları yad etməsi günahmı sayılır? Və yaxud, bu əməllə Quran ayəsinin ziddinəmi hərəkət edir? Allah-taala Əhli-beyt haqqında belə buyurur:

“Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər”[1]

Əmirəlmöminin Əlinin (ə) yolunu davam edənlər onun mövlud günündə cəm olaraq həzrət Əlini tərif edib - ”Əli Allah rizası üçün öz yeməyini miskinə, yetimə və əsirə verərdi” - deməklə məgər ona ibadətmi olunur?

Əgər Peyğəmbərin mövlud günündə onun şəninə nazil olmuş ayələr oxunursa, şerlər və qəsidələr deyilirsə, bu iş nədən haram sayılır?

Onlar (vəhhabilər) peyğəmbərlərin və ilahi övliyaların düşmənləri sayılır. Bidət qoymaqla bu əməllərin qarşısını alırlar. Bu günümüzə qədər 800 ildən öncə dünyaya gəlmiş dahi xalq şairi Nizami Gəncəvinin yubleyləri qeyd olunmaqdadır. Azərbaycan xalqı onun yubleylərini qeyd etməklə onun simasında Azərbaycan ədəbiyyatını

---

[1] *İnsan surəsi, 8-ci ayə.*

yaşatmış olmurmu? Onun yubley mərasimini keçirməklə dahi şairi gündəmdə saxlamış olmurmu? Biz bu gün əgər Peyğəmbərimizin (s) mövludunu qeyd ediriksə ancaq və ancaq İslam dininin elçisini və gətirdiyi dini günümüzdə yaşatmış olmuruqmu?

Allah-taala Qurani-kərimdə Peyğəmbərə hörmət edənləri tərif etmirmi?

“Ona (O Peyğəmbərə) iman gətirən, hörmət edən, yardım göstərən və onunla (Onun peyğəmbərliyi sayəsində) endirilmiş nurun (Quranın) ardınca gedənlər - məhz onlar nicat tapanlardır” [1]

Ayədə - 1) iman gətirən, 2) hörmət edən, 3) yardım göstərən, 4) nurun ardınca gedən - kəlmələri işlənmişdir.

Bu kəlmələrin mənası yalnız Peyğəmbərin yaşadığı zamanamı aiddir? Sözsüz ki, yox. Əgər bu üç kəlmə (iman gətirmək - kömək etmək - nurun ardınca getmək) üçün belə bir fikir irəli sürmək olmazsa, deməli “ehtiram edin” kəlməsi də təkcə Peyğəmbərin zamanına aid ola bilməz.[2] Çünki bu əziz rəhbərə (Peyğəmbərə) həmişə ehtiram olunmalıdır.

Və ya başqa bir yerdə oxuyuruq: «Ya Peyğəmbər! Onlara de ki, sizə gətirdiyim risalətin qarşılığında yaxınlarıma məhəbbətdən başqa sizdən bir şey istəmirəm». Ayədən gün kimi aydın olur ki, Peyğəmbərin ailəsini sevməyi Allah-taala bizə tapşırmışdır. Əgər biz onları mövlud və yas günlərində yad etməriksə onları necə əzizimiztək sevmiş olarıq. Düşünün!

---

[1] *Əraf surəsi, 157-ci ayə.*
[2] *Müfrədati-Rağib kitabı.*

### *10. Allahdan başqasına and içməyi (məsələn peyğəmbərə, imama və ya Kəbəyə..) haram ediblər*

Vəhhabilərin diqqətini cəlb edən məsələlərdən biri də Allahdan başqasına and içməkdir.

Sənani adlı vəhhabi yazıçılarından biri "Təthirul-etiqad" adlı kitabında bu əməlin şirkə səbəb olduğunu açıqlayır.[1] Əl-hədiyyətüs-sünniyyə kitabının müəllifi bunu kiçik şirk adlandırıb.[2]

Amma biz Allahın lütfü ilə təəssübkeşlikdən uzaq olan bir mühitdə bu məsələni araşdırırıq. Allahın kitabını, Peyğəmbərin və Əhli-beytin səhih sünnələrini bu yolda bir çıraq hesab edirik. Və sonda şahid oluruq ki, Allah-taala özü Quranda bir neçə ayələrdə bəzi bitkilərə, məkanlara və s.. and içmişdir. Eləcə də Həzrət Peyğəmbərimiz ataya, anaya and içmişdir.

Quran hər bir müsəlmanın böyük əmanəti, diri nümunəsi və rəhbəri sayılır. Bu kitabda dəfələrlə Allahdan başqasına and içilmişdir. Bunların hamısını toplasaq, bəhs çox uzanar. Allah-taala təkcə "Şəms" surəsində məxluqlardan doqquzuna and içir. Bunlar aşağıdakılardan ibarətdir:

"Günəş, günəşin işığı, ay, gün, gecə, asiman, yer, insan nəfsi."[3]

Bu ayələrin bəzisinə diqqət yetirin:

"And olsun əncirə və zeytuna,
And olsun Tur dağına,
And olsun bu təhlükəsiz şəhərə (Məkkəyə)."[4]

"And olsun səhərə,
And olsun sakitləşdirməkdə olan gecəyə."[5]

"And olsun dan yerinə,
And olsun on gecəyə

---

[1] *Kəşfül-irtiyab, s. 336; Təthirul-etiqad, s. 14.*
[2] *Yuxarıdakı mənbə əl-Hədiyyətüs-sünniyyə, s. 25-dən nəql olunmuşdur.*
[3] *Şəms surəsi, 1-7.*
[4] *Tin surəsi, 1-3.*
[5] *Zuha surəsi, 1 və 2.*

And olsun cütə və təkə."[1]

"And olsun Tur dağına

And olsun açıq dəri üzərinə yazılmış kitaba

"And olsun Beytül məmura" (Mələklərin ibadət etdiyi yer)

"And olsun yüksək tavana və dolub daşan dənizə." [2]

"(Ya Mühəmməd!) Canına and olsun ki, onlar məsləkləri (küfrləri) içində sərgərdan vəziyyətdə durub qaldılar."[3]

Zənnimcə bu qədər Quran ayəsi məsələnin anlamı üçün arif oxuculara kifayət edər. İndi isə Səhih Muslimdə nəql olan bir hədisə nəzər yetirək:

"Bir kişi Peyğəmbərin yanına gəlib dedi:

- Ey Peyğəmbər, hansı sədəqənin savabı daha çoxdur?" Buyurdu: And olsun atana, xəbərdar olacaqsan. Bil və agah ol ki, sağlam mala həris (göz dikən vaxtı) olub fəqirlikdən qorxaraq gələcəkdə yaşamaq ümidində olan zaman sədəqə verməyin böyük savabı vardır."[4]

And içmək haqqında çox hədislər söylənilmişdir. Bunların hamısını nəql etməklə söz uzanar.[5] Əmirəlmöminin Əli ibn Əbu Talib İslam əxlaqının böyük nümunəsidir. O öz xütbə, məktub və kəlamlarında dəfələrlə öz canına and içir.[6] Hətta, birinci xəlifə də öz sözləri qarşısında dayanan müxatəbin atasına and içərdi.[7]

## *11. Peyğəmbərlər və imamın haqqına və ehtiramına Allaha and verməyi haram hesab edirlər*

Nə üçün vəhhabilər qondarma qanunlarla təkallahlığa inananları müşrik hesab edib özlərini Allah dərgahının əziz bəndələri bilirlər?

---

[1] *Fəcr surəsi, 1-4.*

[2] *Tur surəsi, 1-6.*

[3] *Hicr surəsi, 72.*

[4] *Səhih-Müslim, Zəkat kitabı, 3-cü cüz, "Sədəqənin ən fəzilətlisi" fəsli, səh.-94.*

[5] *Müsnədi-Əhməd ibn Hənbəl, c. 5, s. 212; Sünəni-İbn Macə c. 4, s. 995 və c. 1, s. 255 müraciət olunsun.*

[6] *Nəhcül-Bəlağə, 23, 25, 56, 85, 161, 182 və 187-ci xütbələr, 6, 9 və 54-cü məktublar.*

[7] *Müvəttə imam Malik Zərqaninin şərhi ilə, c. 4, s. 159.*

Buna əsasən, doxsan doqquz faiz qiblə əhlini "müşrik", yalnız "Nəcd" əhlini yəni özlərini müvəhhid adlandırmaq olmaz.

Hər hansı əməli ibadət hesab edib öz bildiyimiz kimi təfsir etməyi bizə tapşırmayıblar ki, istədiyimiz kimi də təfsir edək və kimi də istədik "müşrik" adlandıraq.

Onların yanlış düşündükləri başqa əqidələrdən də biri Allaha məsum şəxslərin hörmətinə and verməkdir. İndi oxuyacağımız duada görün nə qəbahət vardır:

Biz Əmirəlmöminin Həzrət Əlinin (ə) dualarında belə andların şahidi oluruq. İmam gecə namazları qıldıqdan sonra bu duanı oxuyardı:

"İlahi, Səni and verirəm o kəsin ehtiramına ki, Səndən Sənə (yəni, Səndən başqa sığınacağı yoxdur), Sənin izzətinə pənah aparır, Sənə sığınır, Sənin ipindən yapışır və Səndən başqasına ürək bağlamır."[1]

Belə bir ruhlandırıcı və Allah dərgahında təvazökarlıqla oxunan dua və Allah dostlarına mehribanlıq göstərmək məgər Allaha doğru üz tutmaq və tovhidlə nəticələnmirmi?

İslami rəvayətlər də belə andların düzgünlüyünə şəhadət verir. Bu rəvayətlərin bəzisi Peyğəmbərdən, bəzisi isə onun Əhli-beytindən nəql olunur.

Əziz Peyğəmbər kor kişiyə belə dua etməyi öyrətdi:

"İlahi, Səni and verirəm rəhmli Peyğəmbərin Mühəmmədə."[2]

"Əbu Səid Xüdri" Peyğəmbərdən bu duanı nəql edir:

"İlahi, Səni and verirəm Səndən hacət istəyənlərə..."[3]

Əziz Peyğəmbər Əlinin (ə) anası Fatiməni dəfn edərkən belə dua etdi:

"İlahi, Səni and verirəm Peyğəmbərinə və ondan qabaqkı peyğəmbərlərə, anam Fatimə binti Əsədi bağışla və onun yerini genişləndir. (yəni onu qəbir əzabından qoru[4].

---

[1] *Səhifəye-Ələviyyə, s. 370.*

[2] *Sünəni-ibn Macə, c. 1, s.441; Müsnədi-Əhməd, s. 138; Müstədrəkül-Hakim, c. 1, s. 313.*

[3] *Səhihi-ibn Macə, c. 1, s. 262; Müsnədi-Əhməd, c. 3, 21-ci hədis.*

[4] *Əl-Füsulul-mühimmə, s. 31,/ Müəllif: İbn Səbbağ Maliki 855 hicri ilində vəfat edib/.*

Əziz oxucular sizə təqdim etdiyimiz bu hədislər nümunədir. Yüzlərlə bu kimi hədislər etibarlı mənbələrdə gəlmişdir ki, Allaha Allahın sevdikləri saleh insanlara and vermək heç də şirk deyildir.

### *12. Dünyadan gedənin ruhuna Quran oxumağı haram ediblər*

Hər hansı yanlış vəhabi əqidəsinə düçar olan vəhhabi ilə hüzür məclislərində qarşılaşdıqda onlar ölünün ruhuna Quran oxumağı düzgün hesab etmirlər. Belə iddia edirlər ki, oxunan Quran ayələrinin mərhuma heç bir faydası yoxdur.

Düzdür ki, Qurandakı xəbərləri öyrənmək və İlahi tapşırıqlara – halal-harama əməl etmək kimi hökmləri insan diri olduqda yerinə yetirə bilər. Buna heç kəsin şübhəsi yoxdur. Quran sözlərinin hikmət, ilahi qanun olması ilə yanaşı oxunmasının şəfa və savab olduğunu inkar edə bilmərik. Dünyasını dəyişən şəxsə onun qiraətinin savabı bağışlanılır. Eyni zamanda biz kimik ki, Peyğəmbər kəlamını kənara qoyub özümüzdən hökm çıxaraq. Necə ki, İbn Macə "Səhih" kitabında nəql edir:

Peyğəmbər buyurdu: "Öz ölüləriniz üçün "Yasin" surəsini oxuyun."[1]

Eyni zamanda Quran oxumaq özü-özlüyündə hüzür məclisində olsa da belə nədən haram olsun? Xalqımızın toplaşdığı hüzür məclisində İlahi kəlmələrin qiraət olunması və bir çox insanın Quran ayələrini dinləməsi nədən pis olsun?

---

[1] *Səhihi-İbn Macə, "Əl-Cənaiz" fəsli, 4-cü fəsil.*

## MÜNDƏRİCAT


YARANMASI VƏ TARİXİ ........................................................................... 3

TÖRƏTDİKLƏRİ CİNAYƏT VƏ VƏHŞİLİKLƏRƏ BAXIŞ ................................... 6

VƏHHABİLƏRİN ƏLİ İLƏ İSLAMİ ƏSƏRLƏRİN DAĞIDILMASI .................... 14

QƏBİRLƏR BARƏDƏ ZİDDİYYƏTLİ VƏHHABİ MÖVQEYİ ........................... 19

VƏHHABİLİK HƏDİSLƏRDƏ ..................................................................... 23

VƏHHABİLƏRİN BİR SIRA İNANC VƏ ŞƏRİİ FƏTVALARININ XÜLASƏSİ .... 25

VAHHABİLİYİN QISA İNANC VƏ QANUNLARI .......................................... 39


